# *PEDAQOJİ ELMLƏR*

## Azərbaycan tarixi dərslərində şagirdlərdə əxlaqi və estetik şüurun formalaşdırılması

**Mübariz Mirəziz oğlu Əmirov**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin professoru,*
*pedaqogika üzrə elmlər doktoru*
**E-mail:** amirov-mubariz@mail.ru

**Rəyçilər:** p.ü. e.d., prof. İ.H. Cəbrayılov,
p.ü. f. d. T.S. Paşayev

**Açar sözlər:** ümumtəhsil məktəbləri, Azərbaycan tarixi, dərslər, əxlaqi dünyagörüş, estetik dünyagörüş, mədəniyyət

**Ключевые слова:** общеобразовательные школы, история Азербайджана, уроки, нравственное мировоззрение, эстетическое мировоззрение, культура

**Key words:** comprehensive schools, history of Azerbaijan, lessons, moral worldview, aesthetic worldview, culture

Yüksək səviyyəli intellektlərin hazırlanmasında təhsilin, eləcə də tarix fənninin müstəsna rolu var. Belə ki, didaktik və tərbiyəvi əhəmiyyət kəsb edən problem bu vaxta qədər tədqiqat obyekti kimi seçilməmişdir. Məhz pedaqoji ədəbiyyatdakı bu boşluğu qismən də olsa doldurmaq məqsədi ilə Vətən tarixinin tədrisində şagirdlərin mədəni səviyyəsinin yüksəldilməsinin metodik yollarını müəyyənləşdirəcəyik. Doğrudur ayrı-ayrılıqda təhsilalanların əxlaq və estetik tərbiyəsinin formalaşdırılmasına həsr edilmiş məqalələr, kitablar nəşr edilib. Lakin Azərbaycan tarixi dərslərində şagirdlərin əxlaq və estetik tərbiyəsinin formalaşdırılması məsələləri bu vaxta qədər sistemli şəkildə tədqiq edilməyib. "Əxlaq - ictimai şüur formalarından biridir. İctimai həyatın bütün sahələrində insanların davranışını tənzim etmək funksiyasını yerinə yetirən sosial institutdur. Əxlaq kortəbii formalaşmış və ümumi qəbul edilmiş kütləvi nümunə, vərdiş, adət, ictimai rəyin gücü ilə möhkəmləndirilmiş göstəriş və qiymətlər şəklində ifadə olunur" (1, s. 152).

Problemlə bağlı ümumtəhsil məktəblərində tədris olunan Azərbaycan tarixi dərsliklərində müvafiq mövzuların məzmununda milli əxlaq normaları yetərincə əks olunmuşdur. Tarixdən kurikulum materiallarının təhlilindən aydın olur ki, məhz tarixin 5-ci məzmun xətti məhz mədəniyyətə həsr olunub. Mədəniyyət məsələlərinin öyrədilməsi şagirdlərdə əxlaq və estetik şüurun formalaşdırılmasına motiv yaradır. Tarix təlimindəki mədəniyyət üzrə məzmun xəttinin tətbiqi müstəsna əhəmiyyət kəsb edir. Belə ki, tarix təlimində ayrı-ayrı tarixi dövrlərin mədəniyyəti barəsindəki biliklərə yiyələnmək mədəniyyətin təşəkkülü və inkişafı ilə siyasi, sosial-iqtisadi həyat arasındakı əlaqəni görməyə, qiymətləndirməyə imkan verir. Mədəniyyət tarixinin öyrənilməsi həm də xalqların və sivilizasiyaların Azərbaycan mədəniyyətinin zənginləşməsindəki rolunun dəyərləndirilməsində, mədəniyyətlərarası və sivilizasiyalararası münasibətlərin bəşəriyyətin sonrakı inkişafına təsirinin müəyyənləşdirilməsində əsaslı rola malikdir. Estetik (yunanca aisthetikos – həssas, duyan) – insan tərəfindən aləmin estetik mənimsənilməsi qanunauyğunluqları, gözəllik qanunları əsasında yaradıcılığın mahiyyəti və forması

haqqında elmdir. Estetika 2,5 min il bundan əvvəl quldarlıq cəmiyyətində - Misirdə, Babilstanda, Hindistanda və Çində meydana gəlmişdir. Antik Yunanıstanda və Romada geniş inkişaf etmişdir (2, s. 139).

Məktəbdəki Vətən tarixinin tədrisində insanın gerçəkliklə qarşılıqlı münasibətlərinin özünəməxsus tərəflərini estetik və etik dünyagörüşü tənzimləyir, etika xeyir və şər, ədalət və ədalətsizlik, borc məsuliyyət və i.a. anlayışları ilə əxlaqi münasibətləri əks etdirir, insanın, adam qruplarının davranışını qiymətləndirir. Estetika obyektiv ictimai münasibətlərin fərdin harmonik inkişafına, onun gözəlliyin yaradılmasına, eybəcərliklə və rəzilliklə mübarizəyə yönəldilmiş azad yaradıcılıq fəaliyyətinə kömək göstərən və ya kömək göstərməyən tərəflərinin predmet hissi təcəssümündən ibarətdir.

Ümumtəhsil məktəblərində Azərbaycan tarixi kurslarında əxlaqi və estetik dünyagörüşün formalaşdırılmasına xidmət edən mövzuları aşağıdakı formada qruplaşdırmışıq (3).

| Sıra | Sinif | Əxlaqi və estetik dünyagörüşü formalaşdıran mövzular |
|---|---|---|
| 1. | V sinif | 1. Mirzə Ələkbər Sabir |
| 2. | V sinif | 2. Ustad Şəhriyar |
| 3. | VI sinif | 3. Mannanın təsərrüfatı və mədəniyyəti |
| 4. | VI sinif | 4. Atropatena mədəniyyəti |
| 5. | VI sinif | 5. Albaniya mədəniyyəti |
| 6. | VII sinif | 6. IX-XI əsrlərdə Azərbaycan mədəniyyəti |
| 7. | VII sinif | 7. İntibah mədəniyyəti |
| 8. | VII sinif | 8. XIV-XVI əsrlərdə Azərbaycan mədəniyyəti |
| 9. | VIII sinif | 9. XII əsrdə Azərbaycan mədəniyyəti |
| 10. | VIII sinif | 10. XVIII əsrlərdə Azərbaycan mədəniyyəti |
| 11. | IX sinif | 11. XVIII əsrdə Maarif. Ədəbiyyat. İncəsənət |
| 12. | XI sinif | 12. Azərbaycan SSR 40-cı illərin ikinci yarısı – 60-cı illərdə Azərbaycan mədəniyyəti |
| 13. | XI sinif | Azərbaycan SSR 60-cı illərin sonu – 80-ci illərin ortalarında Azərbaycan mədəniyyəti |
| 14. | XI sinif | Hüquqi-demokratik dövlət və vətəndaş cəmiyyəti qurmaq yolunda fəslində - Mədəni dirçəliş |
| 15. | XI sinif | Azərbaycan III minilliyin başlanğıcında fəslində - Mədəniyyət |

İmkanlarını araşdırdığımız mövzuların tədrisində şagirdlərlə əxlaqi və estetik dünyagörüşü “formalaşdırmaq məqsədi ilə ağıllı lövhələrdən” istifadə edilməli, dərsdə əxlaqın və estetikanın cəmiyyətdəki rolu şərh edilməlidir. Tarixdə hər dövrün əxlaqi və estetik dəyərləri təhlil edilməli və şagirdlərə mənimsədilməlidir.

XXI əsrdə gənc nəsildə həyati əhəmiyyət kəsb edən yüksək mədəni səviyyəni formalaşdırmaq üçün nə etməliyik və necə etməliyik?

Yüksək mədəniyyət deyəndə insanın həyatdakı bütün fəaliyyətinin yüksək səviyyədə yerinə yetirilməsini nəzərdə tuturuq. Yaşam dövrünü mənalı keçirmək, dünyanı dərk edərək yaşamaq, hər bir kəsin cəmiyyətə fayda verərək yaşamasını təmin etməliyik. İnsanın dünyagörüşünü təşkil edən ictimai şüur formalarını gənc nəsildə formalaşmasını nəzərdə tuturuq. Bu məqsədlə təhsilalanlara ictimai-humanitar fənlərin tədrisində aşağıda sadalanan çox zəruri hesab etdiyimiz ictimai şüur formalarının mənimsədilməsini zəruri hesab edirik: 1) elmi şüur; 2) iqtisadi şüur; 3) estetik şüur; 4) siyasi şüur; 5) hüquqi şüur; 6) əxlaqi şüur; 7) fəlsəfi şüur; 8)

ekoloji şüur; 9) teoloji şüur və s.

Elmi ədəbiyyatda "mədəniyyət" anlayışının 250-dən çox tərifi var. Mədəniyyətin çoxsaylı təriflərindən ikisinin məqalənin mövzusuna bilavasitə aidiyyatı var. 1. Mədəniyyət "istehsalat, ictimai və əqli cəhətlərdə insanın əldə etdiyi nailiyyətin məcmusudur". Məsələn, mədəniyyət tarixi, qədim yunan mədəniyyəti və s. 2. Mədəniyyət nəyinsə yüksək səviyyəsidir, yüksək inkişafdır. Məsələn, istehsalat mədəniyyəti, natiqin nitq mədəniyyəti, müğənninin səhnə mədəniyyəti, bədən tərbiyəsi mədəniyyəti, aktyorun səhnə mədəniyyəti, aparıcının bədii qiraət mədəniyyəti, davranış mədəniyyəti və s.

Sorğu ədəbiyyatlarından gətirilən misallardan aydın olur ki, mədəniyyətin daşıyıcıları ya bir şəxsiyyət (dövlət məmurlarında idarəçilik mədəniyyəti), ya da insan birliyidir (qədim çinlilərin mədəniyyəti). Deməli, belə olduqda çox asan görmək olur ki, hər iki halda mədəniyyətin özünə fəaliyyət kimi, məhz onun inkişafının ən yüksək səviyyəsi kimi baxılır. Lakin, birinci halda mədəniyyət qlobal şəkildə qiymətləndirilir və ön planda nəticə aspekti (nailiyyətlərin məcmusu), ikinci halda isə prosessual səviyyə (yüksək inkişaf, bacarıq), yaxud fəaliyyətin təşkili üsulu irəli çıxır.

"Bununla belə formalaşma prosesinin özü müxtəlif xarakter daşıyır: şəxsi keyfiyyətlərin inkişaf etdirilməsi, təcrübənin qazanılması, "Mən" və "Sənin" "birgə mövcudluğunda" özünün mənəvi dünyasının aktuallaşdırılması, reallaşdırılması məsələləri meydana çıxır" (4, s. 320).

Təhsil şəxsiyyətin və cəmiyyətin maraqlarında həyata keçirilən və nəsillərin mədəni varisliyini, insanın özünün sosial-mədəni funksiyalarını yerinə yetirməyə hazır olmasını təmin edən mədəni inkişaf prosesinin tərkib hissəsi kimi təlim və tərbiyəni özündə birləşdirir. Təhsilin məzmunu yalnız bilik, bacarıq və vərdişləri əhatə etmir, həm də yaradıcı fəaliyyət təcrübəsini, dünyaya emosional-dəyər münasibətini əhatə edir.

Azərbaycan sovet imperiyasının tərkibində olduğu dövrdə təhsilin tarixən formalaşmış texnokratik istiqaməti şagirdlərin real tələbatları, həyat təcrübəsinin tələbləri ilə ümumi orta təhsilin xarakteri arasında əhəmiyyətli uyğunsuzluğa gətirib çıxarmışdır.

Məlum olduğu kimi XXI əsrin əvvəllərində mədəni inkişaf amillərinin dəyişməsinin şahidi olduq. Ən əhəmiyyətli amillərə aşağıdakıları aid etmək olar: a) şəxsiyyətin aksioloji sahəsinin transformasiyası - prioritetin maddi dəyərlər sahəsində yerdəyişdirməsi; b) məktəb təhsili və ailə tərbiyəsinin məktəblinin sosiallaşdırılması prosesinə təsirinin azalması; c) ekran mədəniyyəti, kütləvi informasiya vasitələri və informasiya texnologiyalarının rolunun artması.

Müşahidələr göstərir ki, hazırda mədəniyönlü təhsil dövlətin milli siyasətinin ən mühüm aspekti, humanist dünyagörüşünün formalaşmasının aparıcı amillərindən biri kimi xüsusi diqqət yetirilir. Tədris fəaliyyəti prosesində mədəni irsin mənimsənilməsi, mədəni vərdişlərin əldə edilməsi problemi - dayanıqlı və bununla yanaşı tarixi baxımdan özünəməxsus sosial-mədəni tamlıq kimi cəmiyyətin sosial-mədəni yenilənməsinin fundamental vasitəsidir.

Nümunə üçün deyə bilərik ki, VII siniflərin Azərbaycan tarixi kursunda "XV-XVI əsrlərdə Azərbaycanın mədəniyyəti" məsələlərini tədris edərkən kiçik qruplarla iş formasından istifadə edilməli, müzakirə metodundan və təqdimat üsulundan istifadəni məqsədəuyğun hesab edirik.

Müəllim motivasiya yaratmaq məqsədi ilə vahid Mərkəzləşmiş Dövlət yarandıqdan sonra türk soylu hökmdarların şəkilləri və onların Azərbaycan mədəniyyətinə verdiyi töhfələrin şəkilləri ekrana verilir.

Dərsdə istifadə olunan resurslar: dərslik, iş vərəqləri, kompyuter və proyektor, XV-XVI əsrlərdə Azərbaycan mədəniyyətini özündə ehtiva edən – Məhəmməd Füzulinin, Təbrizdə

Göy məscidin, Sultan Məhəmmədin, Nizami Gəncəvinin “Xəmsə”sinə çəkdiyi miniatürü, Həsən bəy Rumlunun, I Təhmasibin, Şah İsmayılın, I Şah Abbasın, Uzun Həsənin, Şeyx Səfi xalçasının şəkilləri lövhəyə verilir. Ekrandakı şəkillər müəllim və şagirdlərin birgə fəaliyyəti ilə kollektiv müzakirəyə cəlb edilərək təhlil edilir.

Müəllim sinifdəki şagirdləri dörd qrupa bölür. Hər qrupa iş vərəqlərini paylayır.

1-ci qrupun şagirdlərinə tədqiqat sualı olaraq – İntibah dövründəki memarlıq ənənələrini XV-XVI əsr memarlıq ənənələri ilə müqayisə edin. 2-ci qrupun şagirdlərinə tədqiqat sualı olaraq – XVI əsrdə Azərbaycanda məktəb və mədrəsələr, rəsədxanalar, kitabxanalar, poeziya, ədəbiyyat və tarix elmlərinin inkişaf mərhələlərini müəyyən edin. 3-cü qrupun şagirdlərinə tədqiqat sualı olaraq – Azərbaycan dilinin dövlət dili statusu alması, I Şah İsmayıl Xətainin, Qaraqoyunlu Cahan Şahın, Ağqoyunlu Uzun Həsənin, Ağqoyunlu Yaqub padşahın mədəniyyətin inkişafındakı xidmətlərini şərh edin. 4-cü qrupu şagirdlərin tədqiqat sualı olaraq – Qusar rayonunun Həzzə kəndində tikilən Şeyx Çuneyd məqbərəsi, Naxçıvandakı Əlincə çayı üzərində tikilmiş körpü, Bakının şərq darvazaları, dövrünün tanınmış rəssamı Kəmaləddin Behzadi, tanınmış miniatürçü rəssam Sultan Məhəmməd, muğam ustası Əbdülqədir Marağayi, xanəndə Hafiz Lələ, Aşıq Qurbani haqqında materialları təhlil edin və dəyərləndirin. Müəllim qruplaırn təqdimatlarını dinləyib onların bilik və bacarıqlarını qiymətləndirərək mövzunu aşağıdakı fikirlə ümumiləşdirir:

Azərbaycan-türk hökmdarlarının elmə, təhsilə, mədəniyyətə qayğısı bu inkişafı təmin etdi. Mədəniyyətin yüksəlməsində Azərbaycan hökmdarlarının müstəsna rolu oldu.

Nəticə olaraq deyə bilərik ki, təhsilalanlarda yüksək mədəni səviyyəni formalaşdırılmasına ailə, məktəb, ictimai mühit, mühüm təsir qüvvəsinə malikdir. Onlar güclərini birləşdirib məqsədəuyğun fəaliyyət göstərsələr mərhələlərlə biz öz istəyimizə nail ola bilərik.

**Məqalənin aktuallığı.** Hər şeyin ölçüsü hesab edilən insanın ömürboyu təkmilləşməyə, özünün intellektual və mədəni səviyyəsini yüksəltməyə ehtiyac duyur. Nə qədər cəmiyyət var bu problem daim aktual olaraq qalacaq. Hazırladığımız məqalə bu sahədəki boşluğun doldurulmasında az da olsa müəyyən rol oynayacaq.

**Məqalənin elmi yeniliyi.** Azərbaycan tarixi dərslərində şagirdlərdə əxlaqi və estetik dünyagörüşün formalaşdırılmasıdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Əxlaqi və estetik dünyagörüşün formalaşdırılmasının təşkilinə dair irəli sürülən fikir və müddəalardan təhsil müəssisələrinin tarix müəllimləri, eləcə də məktəb rəhbərləri gündəlik pedaqoji fəaliyyətlərində istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Fəlsəfə ensiklopedik lüğəti. Bakı: Nəşriyyat - Poliqrafiya Birliyi, s. 152.
2. Fəlsəfə ensiklopedik lüğəti. Bakı, Nəşriyyat – Poliqrafiya Birliyi, s. 139.
3. Ümumtəhsil məktəblərinin V-XI siniflərinin Azərbaycan tarixi dərslikləri. Bakı, 2015.
4. Оникова А.Л. Краткий политический словарь. 3-е изд. М., 1983, 320 с.

**М.М. Амиров**

## Формирование нравственного и эстетического сознания у учащихся на уроках истории Азербайджана

### Резюме

В статье обосновывается актуальность темы, прокомментированы понятия «культура», «этика», «эстетика». Изучены возможности тем, формирующих нравственно-эстетическое мировоззрение учащихся V-XI классов общеобразовательных школ на курсе истории Азербайджана. Определены методические направления формирования нравственно-эстетического мировоззрения у учащихся на уроках истории Азербайджана.

**M.M. Amirov**

## The formation of moral and aesthetic consciousness in students at the lessons of the History of Azerbaijan

### Summary

The article substantiates the relevance of the topic, commented on the concepts of "culture", "ethics", "aesthetics". The possibilities of topics that form the moral and aesthetic worldview of students of V-XI grades of secondary schools in the history of Azerbaijan have been studied. Methodical directions of forming a moral and aesthetic worldview among students in the lessons of the history of Azerbaijan are determined.

**Redaksiyaya daxil olub:** 13.06.2020